## Ayrılıq

Sözləri: Fərhad İbrahimi
Musiqisi: Əli Səlimi

Fikrindən gecələr yata bilmirəm,
Bu fikri başımdan ata bilmirəm,
Neyləyim ki, sənə çata bilmirəm.
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər bir dərddən olur yaman ayrılıq.

Hicrindən uzundur qara gecələr,
Bilmirəm mən gedim hara gecələr,
Vurubdur qəlbimə yara gecələr.
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər bir dərddən olur yaman ayrılıq.

Yadıma düşəndə ala gözlərin,
Göydəki ulduzdan allam xəbərin,
Neyləyim kəsibsən məndən nəzərin.
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Hər bir dərddən olur yaman ayrılıq.

---

Mətni yığdı: Arzu Ağayeva
Veb dizayn: Aynurə Hüseynova

© Azerbaijan International